# MÜSLÜM MAHİR HİKMƏT - 70



Hörmətli Müslüm müəllim!

Sizi – istedadlı şair və filosofu yaradıcılığınızın 55 illiyi və yaşınızın 70 illiyi münasibəti ilə təbrik edirik.

Siz ədəbiyyata keçən əsrin 60-cı illərində gəlmisiniz. İlk şeirlərinizlə orta məktəbdə oxuyarkən 1966-cı ildən davamlı olaraq ”Azərbaycan pioneri” qəzetində, ”Pioner” jurnalında, radionun “Ulduz” verlişində və Ağdaş rayonun “Əmək” qəzetində müsabiqələrin qalibi kimi ədəbi fəaliyyətə başlamısınız. Öz şeirlərinizlə və dürrilər adlandırdığınız aforistikanızla, fəlsəfi fraqmentlərinizlə “Palitra”, “Paritet”, “Səhifələr”, “Oxu məni”,”Milli birlik”, “Cəmiyyət və Ekologiya”, “Üfüq”, “Qarizont” qəzetlərində, “Molla Nəsrəddin”, “Yeni iqtisadiyyat”, “Audit və uçot”, “Vergi xəbərləri”,”Ulduz”, “Azərbaycan” “Xəzər xəbər”, “Qanun”, “Elm və həyat” jurnallarında ardıcıl olaraq bir çox nömrələrində çap olunmuşunuz, imzanızla geniş oxucu auiditoriyasının sevgi və rəğbətini qazanmısınız.

Siz maliyyə-kredit təhsilinizlə baş mühasib işləməklə yanaşı Jurnalistika Sənətkarlığı İnstitunu bitirmisiniz, lakin bədii yaradıcılığa -poeziya daha çox ruhunuzun işığı olmuş, və həm də aforistika janrında fəlsəfi esselərlə çıxış etmisiniz və beləliklə ədəbiyyat və klassik fəlsəfə bütünlüklə ruhunuzun cövhərinə - mahiyyətinə çevrilmişdir və beləliklə, beş mindən çox aforizm – dürrilər Sizin yaradıcılığınızın cövhərinə çevrilmişdir.

Xüsusi qeyd olunmalıdır ki, Siz Azərbaycanın ən böyük müəssisələrinin biri olan “İqlim” birliyində baş mühasib işlədiyiniz dövrdə - 22 il ərzində, hələ yazıçılar birliyinin üzvü olmadığınız dövrdə belə, həmən birlikdə Azərbaycan Yazıçılar İttifaqının bir çox nüfuzlu, görkəmli şair və yazıçılarının müəssisə kollektivi ilə mütamadi olaraq ədəbi görüşlərinin keçirilməsinin əsil təşəbbüskarı və təşkilatçısı kimi fəaliyyət göstərmisiniz və bununla da ədəbiyyatımızın yaxın dostu və fədakar təbliğatçısı olmusunuz.

1975-ci ildə Sizin yaradıcılığınıza qiymət olaraq xalq şairləri Nəriman Həsənzadə ədəbi təhsilinizi daha da yüksəltmək üçün Moskvaya Qorki adına Ədəbiyyat İnstituna göndərilməsinə təşəbbüs etmişdir.

Siz bir çox almanaxlarda – “Vətən səsi”, “Dan ulduzu”,”Ürəklərdə ucalan abidə” və başqalarında çıxış etməklə yanaşı, ilk şeirlər kitabınız “Dastanlara sığmayan ömür” (1997),” Azərbaycan dövlət nəşriyyatında çapdan çıxmış, “Zəfərnamə” (2000), “Açılmamlş xəzinə” (2001) poeziya kitablarının müəllifisiniz. Yaradıcılığınızda əhəmiyyətli yer tutan fəlsəfi esselərinizlə, dürrilərinizin və afoistikanın bir qismi toplanmış “Sosial həyatın esiklopediyası” kitabınızla oxucuların və yaradıcı ziyalılarımızın diqqətində olmusunuz.

Siz 2008-ci ildə sərhəd qoşunları komandanlığının və Azərbaycan Yazıçılar birliyinin birgə təşkil etdiyi Sərhədçilər gününə həsr edilmiş şeirlərinizlə Iki dəfə müsabiqənin mukafatçılarından və Azərbaycan Yazıçılar birliyi və Respublika həmkarlar ittifaqının 8 Mart Beynəlxalq qadınlar gününə həsr olunmuş şeir müsabiqəsinin laureatlarından birisiniz.

Son illərdə Azərbaycan Milli Akademiyasının nəşri olan “Elm və həyat” jurnalında silsilə fəlsəfi esselərinizin çap olunması sizin fəsəfədə böyük uğurlarınızın nümunələridir.

Hörmətli Müslüm müəllim!

Sizə, yüzlərlə şeir müəllifinə, beş min iki yüzdən çox rübailərin və beş mindən çox fəlsəfi dürrilər adlandırdığınız - aforistik ifadələrin və ondan çox poemalarınızın toplusuna çevriləcək üç cildliyinizin çapdan çıxmasında, təsisçisi və baş redaktoru olduğunuz “Ədəbi Azərbaycan”qəzeti və “Bakının panoramı” jurnalının fəaliyyətində yeni nailiyyətlər, ədəbi-bədii yaradıcılığınızda parlaq, gözəl uğurlar diləyərək, Sizi bir daha yubileyiniz münasibəti ilə təbrik edir, Sizə uzun ömür və can sağlığı arzulayırıq.

***Azərbaycan Yazıçılar Birliyi***

Kredo 2021.- 28 aprel.- S.12.